**Orucoğlu, Z.** Ürəklərdə yaşayan qəhrəman / Zəfər Orucoğlu // 525-ci qəzet. - 2025. - 1 oktyabr. - **№ 177**. - S. 14.

**1998-ci il mayın 23-də Cəlilabad rayonunun Ağdaş kəndində anadan olan Alim Davud oğlu Şükürov, hələ gənc yaşlarından mərdliyi və vətənpərvərliyi ilə el arasında seçilərək hörmət və nüfuz qazanmışdı. O, insan həyatının əsl dəyərini Vətənə, xalqa və doğma elinə təmənnasız xidmətdə görürdü. Elə onu müqəddəs şəhidlik zirvəsinə ucaldan da məhz Vətən torpağının hər qarışına bəslədiyi sonsuz sevgi və xalqının xoşbəxt gələcəyi arzusu idi.**

Çox qısa bir ömür yaşasa da, igidliyi yaşının çərçivəsinə sığmayacaq qədər böyük olub və bu cəsarəti ilə milyonların qəlbində əbədi iz qoyub. Bu gün Alim Şükürovun adı bir qəhrəmanlıq simvoluna çevrilərək insanların yaddaşında və qəlbində iftixar mənbəyi kimi yaşayır. Qəhrəmanımız ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Vətən müharibəsi şəhidi Alim Şükürov 2004-2015-ci illərdə Ağdaş kənd tam orta məktəbində təhsil alıb, 2018-ci ildə Cəlilabad Peşə Liseyini uğurla bitirib. Çağırış yaşı çatdıqda hərbi xidmətə yollanaraq 2018-2020-ci illərdə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində müddətli həqiqi hərbi xidmətdə olub. Xidmət dövründə intizamlı və məsuliyyətli əsgər kimi komandirlərin rəğbətini qazanıb, elə buna görə də əsgərlik müddəti başa çatmadan peşəkar sərhədçi olmaq qərarına gəlib.

Vətən sevgisi ilə döyünən ürəyi onu 2020-ci ilin fevral ayından Çevik Hərəkət Qüvvələrinin Artilleriya Briqadasında kəşfiyyatçı kimi xidmətə aparıb. Mərdlik, dürüstlük və fədakarlıq Alimin xarakterində özünəməxsus yer tuturdu.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlandıqda, Alim də ön sıralarda döyüşə atılıb. İlk döyüşlərdə endirdiyi sarsıdıcı zərbələrlə bir çox düşmən yaraqlısını məhv edib, bir neçə dəfə ölümlə üz-üzə gəlməsinə baxmayaraq, Vətənə olan məhəbbəti onu qorxusuz bir qəhrəmana çevirib.

Cəbrayıl və Zəngilan istiqamətində gedən döyüşlərdə igidliklə iştirak edən Alim, Zəngilan şəhəri və ətraf ərazilərin azad olunmasında xüsusi qəhrəmanlıq göstərib. 21 oktyabr 2020-ci il tarixində Zəngilanda keçirilən döyüşdə - düşmənin 40-dan artıq hərbçisinin məhv edildiyi, bir neçəsinin əsir götürüldüyü və düşmənin tamamilə darmadağın edildiyi savaşda Alim ağır yaralanıb. Füzuli Diaqnostika Mərkəzinə təxliyə olunaraq təcili cərrahiyyə əməliyyatı keçirib. Lakin həkimlərin səylərinə baxmayaraq, 22 oktyabr 2020-ci il tarixində şəhidlik zirvəsinə ucalıb.

Qəhrəman Vətən oğlu Alim Şükürovun adı xalqımızın yaddaşında daim yaşayacaqdır.